# ...Vətən seçdi

*Kimsə bilməz Tanrı dağın yaşını,*
*Duman almış altayların başını.*
*Uçurmuşlar başdan dövlət quşunu,*
*Sərvətinə yüz çevirmiş zaman hey...*
*Qoca turkün düşdüyü dərd yaman hey...*





*Rzayev Aslan Süleyman oğlu oğlu Altayla*

Tez-tez Almas İldırımın bu misralarını söyləyərdi Aslan Süleyman oğlu. Təsadüfi deyildir ki, doyunca oxşayıb, əzizləmədiyi, dil açıb, onu "Ata" – deyə çağırdığını eşitməyəcəyi yeganə övladına da Altay adı vermişdi şəhidimiz.

Rzayev Aslan Süleyman oğlu 1995-ci il, yanvar ayının 21-də Bakının Maştağa qəsəbəsində dünyaya gəlmişdir. 2001-ci ildə qəsəbədəki Cavid Nurməmmədov adına 108 saylı tam orta məktəbin 1-ci sinfinə sənəd verərkən müsahibə vaxtı Abbas Səhhətin "Vətən" şeirini söyləmişdi. Şeir, sənət vurğunu idi. İkinci sinifdə şeir müsabiqəsində iştirak edən Aslan C. Cabbarlının "Ana" şeirini söyləyir və qalib olur. Nizami, Nəsimi, Füzuli, Seyid Əzim, Sabirdən tutmuş bugünkü müasir şairlərin şeirlərindən sevə-sevə əzbərlədiyi nümunələri xüsusi intonasiya ilə söyləyirdi. Əruzu yaxşı bilirdi. Bu heç də Aslanın humanitar sahəni seçəcəyindən irəli gəlməyirdi. Şeir, ədəbiyyat onun hobbisi idi. Tarixi də yaxşı bilirdi. 2012-ci ildə orta məktəbi əla qiymətlərlə bitirən Aslan Rzayev həmin ildə Azərbaycan Texniki Universitetinin Kompyuter Mühəndisliyi fakültəsinə daxil olur. Seçdiyi ixtisası səylə öyrənməyə çalışsa da, sonda kəsiri olduğundan diplomunu ala bilməyir. 2016-cı ildə həqiqi hərbi xidmətə çağırılan Aslan Rzayev tam ali təhsilli sayılmadığına görə artıq zabit kimi deyil, sıravi əsgər kimi bir il altı ay xidmət keçir. Xidmət etdiyi Ağcabədi rayonundakı "N" saylı hərbi hissə o zaman təmas xəttində yerləşirdi. Burada vəziyyət təhlükəli idi. Tez-tez atəşkəsi pozan düşmən cavab atəşi almayınca susmayırdı. Aslan baş atıcı, manqa komandiri kimi postlarda fəaliyyət göstərmişdir. 2018-ci ilin yanvar ayında hərbi xidmətdən qayıdan Aslan Kontakt-Homun Bakıxanov qəsəbəsindəki filialında işə düzəlir. Həmin ilin avqust ayının 26– da isə sevib-seçdiyi, dörd il bir qrupda oxuduğu xanımla ailə həyatı qurur. Anası Hafizə xanım danışır ki, gəlinim Salyandandır. Toyda elə narahat idim ki, necə olmasa, uzaq yola çıxırdıq. Şükür Allaha ki, hər şey salamatlıqla qurtardı. Hər şey yaxşı idi.

2019-cu il, may ayının 21-də bu gün atasını axtaran, qapıya, pəncərəyə boylanan, şəkillərini öpən oğul balası dünyaya gəlir. Aslanın istəyi ilə adını Altay qoyurlar.

Vətən müharibəsi başlayanda Aslan Vətəni seçdi. Özü cəbhəyə getmək istəyirdi. Bu zaman Prezident qismən səfərbərlik elan etdi və siyahıda Aslan Rzayevin də adı var idi. Çağırışçı vərəqini sentyabrın 29-da, axşam alan Aslan artıq getməyə hazırlaşırdı. Hafizə xanım danışır ki, sentyabrın 30-da çantasını götürab uçauça gedirdi. Mən arxasınca çağırdım ki, bir dayan, bizimlə görüş. Bizimlə görüşdükdən sonra atası aparıb yola saldı onu.

Manqa komandiri təyin olunan Aslan Rzayaev Cəbrayıl və Füzuli şəhərlərinin, eləcə də kəndlərinin alınması uğrundakı döyüşlərdə rəşadətlə döyüşmüşdür. Döyüş yoldaşlarının söylədiyinə görə, Füzuli uğrundakı döyüşlər çox qızğın gedirdi. Düşmən beton sədlər çəkmişdi. Güllə yağış kimi üstümüzə yağırdı. Belə çətin şəraitdə qüvvəmizi toplayıb, düşmənin müqavimətini qıra bildik. İtkilərimiz çox oldu.



Evin tək oğlu, bacısının həm təkcə dostu, həm də qardaşı olan Aslan Rzayev oktyabrın 13-də Hadrut uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olur. Respublika Prezidenti İlham Əliyev cənablarının fərmanı ilə Rzayev Aslan Süleyman oğlu şəhadətindən sonra "Cəbrayılın alınması" və "Vətən uğrunda" medalları ilə təltif edilmişdir.

Hafizə xanımm söyləyir ki, cəld, ürəkli idi. Hamı ilə mehriban rəftar edərdi. Bacısına mehriban qardaş idi. Dost idilər. Qızım həm də dostunu itirib. "Allah razı olsun" kəlməsi dilindən düşmürdü. Yuxularıma gəlir. Nə soruşuram, gülümsəyir, "Allah razı olsun" deyir. Bacısı onu hər gecə yuxuda görür. Yoldaşının yuxusuna gələndə iş yoldaşlarını soruşur. Onlar eyni müəsisədə işləyirdilər. Yoldaşı ilə çox mehriban idi. Həftədə bir gün istirahət günü olurdu. Ailəsinə sərf edirdi. Gəzməyə gedirdilər. Cəmi iki il ailə həyatları oldu. Hamımızı çox istəyirdi. Çox sağ olsun. Həyatda olduğu kimi, şəhadəti ilə də başımızı uca etdi. Döyüş yoldaşları baş çəkir, şücaətlərindən danışırlar. El yığıldı dəfninə. Çox sağ olsun camaat. Gəlirlər, yad edirlər, köməklik göstərirlər. Amma hələ də yol gözləyirəm.

Elinə, obasına, xalqına, Vətəninə qurban getdi Aslan. Vətəni daha çox sevdi. Vətənə qurban getdi. Cocial şəbəkədə oğlu ilə birgə olan şəklini paylaşmışdı. Altından Hacıbaba Hüseynovun qəzəlindən aşağıdakı beyti yazmışdı:

Gül açan vəqti çəmənlər, salınız yadə məni,
Sizə qurban özüməm, ta sizə qurban nə kəsim?

Siz elə bir zirvədəsiniz ki, hər yerdən görünürsünüz. Siz Azərbaycan xalqının qan yaddaşısınız. Qazanacağımız bütün nəaliyyətlərə görə sizə minnətdar olacağıq.



*Zəkiyyə Əbilova ,*
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstituitunun baş elmi işçisi, fəlsəfə üzrə elmlər doktoru*